# Qürur duyduğumuz alim və müəllim

Ölkəmizdə yüksək ixtisaslı tibb kadrlarının hazırlanmasında xidmətləri olan elm və təhsil xadimlərindən biri də Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri, Əməkdar elm xadimi, professor Vaqif Bilas oğlu Şadlinskidir. V.Şadlinski 1940-cı il yanvarın 24-də Qərbi Azərbaycanın Vedibasar bölgəsində xalq qəhrəmanı Abasqulu bəy Şadlinskinin nəslində - Bilas Şadlinskinin ailəsində dünyaya göz açmışdır.



O, 8 yaşında olarkən ailə 1948-ci il Stalin deportasiyası nəticəsində məcburən Azərbaycana köçürülmüş, Şəmkir rayonunun Leninkənd (indi Çinarlı) qəsəbəsində məskunlaşmışdır. Müəllim ailəsində böyüyən Vaqif Şadlinski qəsəbədəki beynəlmiləl orta məktəbi yüksək qiymətlərlə bitirmişdir.

ATİ-ni 1968-ci ildə fərqlənmə diplomu ilə bitirən Vaqif Şadlinskini tələbəlik illərindən tanıyıram. Mədəni-kütləvi tədbirlərin təşkilatçısı və fəal iştirakçısı olan Vaqif Şadlinski 1964-cü ildə 3 saylı tələbə yataqxanası üzrə tələbə şurasının sədri, bundan bir il sonra institut Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri seçilmişdi. Üzərinə düşən vəzifənin öhdəsindən bacarıqla gəlirdi. Bu əzmkarlığın nəticəsində o, 1967-ci ildə institut partiya komitəsi bürosunun, habelə Respublika Tibb İşçiləri Həmkarlar İttifaqı Komitəsi plenumunun üzvü, Ümumittifaq Həmkarlar İttifaqı Komitəsi İşçilərinin X qurultayına nümayəndə seçilmişdi. V.Şadlinski institutu bitirdikdən sonra ATİ-nin Elmi Şurasının qərarı ilə Terapevtik stomatologiya kafedrasında baş laborant vəzifəsində çalışmışdır. O, 1970-ci ilin iyun ayından ATİ-nin İnsan anatomiyası kafedrasına baş laborant vəzifəsinə keçirilmiş, həmin ilin avqust ayında isə kafedranın assistenti vəzifəsinə seçilmişdir. Elmi-pedaqoji fəaliyyətini həmişəlik bu kafedraya bağlayan Vaqif Şadlinski kafedranın assistenti vəzifəsindən kafedra müdiri, professor vəzifəsinə qədər yüksəlmişdir.

V.Şadlinski 1976-cı ildə Müalicə-profilaktika fakültəsinin həmkarlar ittifaqı şurasının sədri seçilsə də, elmi-tədqiqat işlərini də müvəffəqiyyətlə yerinə yetirmişdir. 1982-ci ildə Tbilisidə "Gözyuvasıaltı və aşağı alveol sinirlərinin topoqrafiyası və kötükdaxili quruluşu" mövzusunda namizədlik, 1999-cu ildə isə "Normal və zobogen təsir şəraitlərində qalxanabənzər vəzin quruluş homeostazı və morfofunksional xüsusiyyətləri" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Gərgin əməyi sayəsində əldə etdiyi elmi nəticələr akademik M.R.Sapin, akademik N.A.Cavaxişvili, akademik L.L.Kolesnikov, professor V.V.Bobin, professor D.A.Siqaleviç və dünya səviyyəli alimlər, o cümlədən türk morfoloqları tərəfindən yüksək səviyyədə bəyənilmişdir. Odur ki, tibbin bu sahədəki mürəkkəblikləri ilə maraqlanan çoxsaylı tədqiqatçı morfoloq alimlər V.Şadlinski ilə qarşılıqlı elmi yaradıcılıq müqavilələri bağlayır və dostluq əlaqələri qururlar.

1995-ci ildən isə İnsan anatomiyası və tibbi terminologiya kafedrasına Rusiya Elmlər Akademiyasının akademiki, Əməkdar elm xadimi V.Şadlinski rəhbərlik edir. Təsadüfi deyil ki, ekspertlər bu dövrü kafedranın ikinci inkişaf dövrü adlandırırlar. V.Şadlinski insan anatomiyası fənni üzrə mühazirə və praktik məşğələlər apararaq yüksək ixtisaslı tibb kadrlarının hazırlanmasına böyük əmək sərf edir. Vaqif müəllim insan anatomiyası fənni ilə digər morfoloji fənlər arasında inteqrasiya yaradan alimlərdən biri və İnsan anatomiyası kafedrasının tarixi ənənələrini yeni inkişaf müstəvisində davam etdirən pedaqoq kimi tanınır. Bir sıra görkəmli elm ocaqlarının fəxri və həqiqi üzvü seçilən V.Şadlinski 1991-ci ildə Azərbaycan Milli Yaradıcılıq Akademiyasının tibb doktoru, 1997-ci ildə Respublika Ziyalılar Cəmiyyətinin vitse-prezidenti və Ziyalı Universitetinin fəxri doktoru, Qafqaz Xalqları Akademiyasının vitse-prezidenti, Rusiya Təbiət Elmləri Akademiyasının xarici üzvü, 1998-ci ildə Nyu York Akademiyasının üzvü, 1999-cu ildə Beynəlxalq Kadrlar Akademiyasının anatomiya professoru, 2001-ci ildə Beynəlxalq Morfoloqlar Assosiasiyası Koordinasiya Şurasının üzvü, 2002-ci ildə Avropa Patoloqlar Cəmiyyəti idarə heyətinin üzvü, 2004-cü ildə Rusiya Tibb Elmləri Akademiyasının akademiki seçilmişdir. Almaniyadakı Avropa Təbiət Elmləri Akademiyasının akademiki, 2008-ci ildə Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının üzvü, eyni zamanda Rusiya Elmlər Akademiyasının akademiki adını qazanmışdır.

V.Şadlinskinin səyi ilə ATU-nun İnsan anatomiyası kafedrasının beynəlxalq əlaqələri ildən-ilə genişlənib. Onun rəhbərliyi altında akademik N.Cavaxişvili və akademik M.Sapin arasında aparılan danışıqlara əsasən 1997-ci ildə Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası kafedrası ilə A.Natişvili adına Tbilisi Eksperimental Morfologiya İnstitutu, 2000-ci ildə İ.Seçenov adına Moskva Tibb Akademiyası, eləcə də Türkiyədəki bir sıra universitetlərin tibb fakültələrinin morfologiya, həmçinin Rusiya və Ukrayna tibb universitetlərinin İnsan anatomiyası kafedraları arasında elmi araşdırmalar və təhsil sahəsində qarşılıqlı əməkdaşlıq üçün uzunmüddətli müqavilələr imzalanmış, bir sıra layihələr həyata keçirilmişdir. Bu aktual məsələlər onun alim-pedaqoq narahatlıqlarından qaynaqlanır. Qeyd etməliyik ki, kafedranın dostluq və elmi əməkdaşlıq əlaqələrinin bünövrəsi ötən əsrin 50-60-cı illərində kafedraların ozamankı müdiri - Azərbaycanda elmi anatomiyanın banisi Kamil Balakişiyevlə akademik Dmitri Jdanov tərəfindən qoyulmuşdur. Sevindirici haldır ki, bu əlaqələr K.Balakişiyevin tələbəsi Vaqif Şadlinski, eləcə də Dmitri Jdanovun yetirməsi Mixail Sapin tərəfindən uğurla davam etdirilir.

Vaqif müəllimin əsl pedaqoq və ziyalı həssaslığı ilə kafedranın nəzdindəki dünyaca məşhur tədris muzeyi ikinci fundamental yenidənqurma dövrünə qədəm qoymuşdur. Kafedranın nəzdində "Dayaq hərəkət aparatı muzeyi", unikal tədris və elm mərkəzi yaradılmışdır. Kafedranın istifadəsiz qalmış zirzəmisi yüksək səviyyədə təmir olunmuş, yeni mühazirə zalı yaradılmış, illərdən bəri toplanan eksponatlar saxlanılmaqla şöbələr təşkil edilmiş, müasir eksponatlarla zənginləşdirilmiş, əlavə dərs otaqları istifadəyə verilmişdir. Yeri gəlmişkən, bu məsələlərin həllində V.Şadlinskini dəstəkləyən və lazımi kömək göstərən ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə kollektivimiz adından minnətdarlığımızı bildiririk. Rəhbər uzaqgörənliyinin nəticəsidir ki, indi tələbələrin asudə vaxtlarında sərbəst məşğul olmaları və dərslərin yaş meyit preparatları üzərində keçirilməsi təmin edilmişdir. Bununla da tədrisin keyfiyyətinin məqsədyönlü şəkildə yaxşılaşmasına, yüksək ixtisaslı həkim kadrların hazırlanmasına hərtərəfli şərait yaradılmışdır. Qürurverici haldır ki, kafedranın nəzdində yaradılmış bu muzey Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin ictimai əsaslarla fəaliyyət göstərən rəsmi muzeylər reyestrinə daxil edilmişdir.

Daim yeniliyə can atan V.Şadlinski 600-ə yaxın elmi işin, o cümlədən 12 monoqrafiya, 28 dərslik və dərs vəsaitlərinin, 20 metodik tövsiyənin, 2 səmərələşdirici təklifin, onlarla elmi-kütləvi məqalənin müəllifidir. Alimin "Normada strumogen təsirlər zamanı qalxanabənzər vəzin struktur təşkili və morfofunksional xüsusiyyətləri", həmçinin "Həzm və tənəffüs sisteminin kiçik vəziləri" adlı monoqrafiyaları Moskvada çap edilmişdir. V. Şadlinskinin səyi nəticəsində 1998-ci ildə Türkiyənin İzmir şəhərində Şərqdə ilk dəfə bircildlik orijinal "İnsan anatomiyası atlası", 2009-cu ildə isə 7428 termindən ibarət olan monumental "Anatomik terminologiya" kitabları çap edilmişdir.

V.Şadlinskinin rəhbərliyi altında 17 namizədlik və 7 doktorluq dissertasiyası müdafiə olunub. Vaqif müəllim gənc elmi tədqiqatçılara diqqət və qayğı ilə yanaşır. Hazırda 2 doktorluq dissertasiyasının ilkin müzakirəsi keçirilib, 1 doktorluq və 6 namizədlik dissertasiyası yekunlaşmaq üzrədir. Müqayisə üçün xatırlatmaq istərdik ki, bu kafedrada 1919-1936-cı illərdə 6 doktorluq, 2 namizədlik (onlardan yalnız biri milli kadrdır), 1937-1973-cü illərdə 5 doktorluq, onun da 4-ü qeyri-millətdən olmaqla 16 namizədlik, 1974-1994-cü illərdə 1 doktorluq və 12 namizədlik dissertasiyası müdafiə edilmişdir. Göründüyü kimi, son illərin göstəricisi əvvəlki illərin göstəricilərindən nəzərəçarpacaq dərəcədə üstündür. Xatırlatmaq yerinə düşər ki, vaxtilə Vaqif Şadlinskinin tələbələri olmuş müəllimlərin də çalışdığı bu kafedrada hazırda 8 nəfər elmlər doktoru, professor, 10 nəfər tibb üzrə fəlsəfə doktoru, dosent, 9 nəfər tibb üzrə fəlsəfə doktoru, baş müəllim, 7 nəfər tibb üzrə fəlsəfə doktoru, assistent, 1 nəfər tibb üzrə fəlsəfə doktoru, baş laborant, 5 nəfər assistent, 5 nəfər baş laborant çalışır. Bu tərkib Anatomiya kafedrasının yüksəliş dinamikasında yeni bir tarixi salnamənin yarandığının bariz nümunəsidir. Son illər kafedrada yaradılan əlverişli elmi-pedaqoji şəraitin nəticəsidir ki, müəllim yoldaşlarımızın böyük əksəriyyəti Amerika Birləşmiş Ştatlarında, Türkiyə Cümhuriyyətində, Almaniyada, İsraildə, Çində, Kanadada, Rusiya Federasiyasında, Belarusda, Ukraynada, Özbəkistanda, Gürcüstanda və digər xarici ölkələrdə keçirilən elmi konfrans və konqreslərdə, simpoziumlarda elmi məruzələrlə çıxışlar edib, məqalə və tezislər nəşr etdiriblər. Əməkdaşların elmi-tədqiqat işlərinin nəticələri kafedrada fənn üzrə tibbi təhsilin tədrisinin optimallaşdırılmasına, yeni texnologiyaların tətbiqinə əlverişli şərait yaradır. Bununla da tədris elmə, elm də tədrisə xidmət edir.

Xatırladaq ki, Vaqif müəllim XX əsrin əvvəllərində olduğu kimi, 1990-cı illərdə də Azərbaycan torpaqlarını işğal etməklə ərazilərini genişləndirməyə can atan ermənilərə qarşı daim qətiyyətlə mübarizə aparmışdır. 1988-1994-cü illərdə fəal vətəndaşlıq mövqeyi ilə seçilən Vaqif müəllim kafedranın müəllimləri və ya münasibətdə olduğu ziyalılarla dəfələrlə cəbhə bölgəsi olan Şuşada, Ağdamda, Xocavənddə, Gədəbəydə, Tovuzda əsgər səngərlərinə getmişdir. Novruz bayramı və Yeni il ərəfəsində, eləcə də digər tarixi günlərdə Saatlıda, Beyləqanda, Şəmkirdə, Bərdədə, Goranboyda çadır düşərgələrində yaşayan qaçqın və köçkünlərlə görüşmüş, öz şəxsi təşəbbüsü ilə topladığı humanitar yardımı ermənilər və onların havadarları tərəfindən məhrumiyyətlərə düçar olmuş Qarabağın əhalisinə paylamışdır.

Vaqif müəllim vətənpərvər ziyalı kimi gənclik illərindən dünya şöhrətli siyasətçi Heydər Əliyevin və onun Azərbaycanı işıqlı gələcəyə aparan ideyalarının pərəstişkarı olub. O, Heydər Əliyev məktəbinin yetirməsi olmasından qürur duyur. Təsadüfi deyil ki, 1998-ci ildə keçirilən prezident seçkiləri ərəfəsində təşəbbüs qrupunun tərkibində Azərbaycanın bir sıra rayonlarında, habelə Türkiyə Cümhuriyyətində olub, Ulu Öndərin xalq, vətən üçün gördüyü cahanşümul işlər barədə geniş ictimaiyyət qarşısında çıxışlar edib. Bu gün də tələbə-gənclər və kollektiv arasında müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyev siyasətini uğurla davam etdirən İlham Əliyevin dünya siyasətçiləri arasında artan nüfuzundan, ölkəmizin ildən-ilə göz oxşayan inkişafından ürəkdolusu söhbət açır, tələbələri və müəllimləri dövlət başçısı İlham Əliyevin ətrafında sıx birləşməyə, vətənimizin inkişafı, xalqımızın firavan gələcəyi naminə verdiyi tapşırıq və tövsiyələrin həyata keçirilməsinə dəstək olmağa çağırır. Vaqif Şadlinski ictimai-siyasi fəaliyyəti, tibb elminin və tibb təhsili sisteminin inkişafı, habelə xeyriyyəçilik sahəsində göstərdiyi xidmətlərinə görə "SSRİ səhiyyə əlaçısı" döş nişanına (1983), akademik Yusif Məmmədəliyev adına mükafata (1998), Beynəlxalq Kadrlar Akademiyasının qızıl medalına (1999), "Əməkdar həkim" fəxri adına (2000), "Vektor" Beynəlxalq Cəmiyyətinin Azərbaycanda keçirdiyi "Azərbaycanın 100 görkəmli alimi" layihəsinin fəxri diplomuna (2001), Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının qızıl medalına (2008) və sair mükafatlara layiq görülmüşdür.

Qayğıkeş ziyalı, yenilikçi alim Vaqif Şadlinski həm də gözəl ailə başçısıdır. Dörd övladı və nəvələri var. Həyat yoldaşı Solmaz xanım uzun illər xarici dil müəllimi işləyib, indi təqaüddədir, qızları Ramidə, Səidə və Səbinə atalarının yolunu davam etdirirlər. Hər üçü ATU-nu bitirib, yüksəkixtisaslı həkimdirlər, elmi dərəcələri var, Bakının müxtəlif səhiyyə müəssisələrində çalışırlar. Ailənin yeganə oğul övladı Ceyhun əvvəl ATU-nu, sonra isə Bakı Dövlət Universitetinin Hüquq fakültəsini bitirib. Ailəlidir, üç övladı var. Yaxşı mütəxəssis və idmançı olmaqla yanaşı, bir neçə dil bilir, yüksək rütbəli hərbi zabitdir.

ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrasının inkişafında böyük xidmətləri olan tibb elmləri doktoru, Əməkdar elm xadimi, professor, Rusiya Tibb Elmləri və Avropa Təbiət Elmləri akademiyalarının akademiki Vaqif Şadlinskini yaşının 80, elmi-pedaqoji fəaliyyətinin 50 illiyi münasibəti ilə kollektiv adından ürəkdən təbrik edir, ona işində və yaradıcı elmi-pedaqoji axtarışlarında daha böyük müvəffəqiyyətlər arzulayırıq.

***Şöhrət QASIMOV,***
***ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrasının dosenti***

Azərbaycan.- 2020.- 11 yanvar.- S.6.